**“Konstromat” ASC üzrə Təhlil hesabatı**

“Konstromat” ASC 2013-cü il oktyabr ayından Norm Sement zavodunun rəsmi distribyutoru olaraq fəaliyyət göstərir və zavodun istehsal etdiyi Klass A (400 marka) və Klass B (300 marka) kisə bağlamada olan sement məhsullarının distribyutor olduğu Azərbaycan Respublikasının Bakı, Abşeron, Sumqayıt, Qobustan, Oğuz, İsmayilli, Balakən, Qəbələ, Şəki, Zaqatala, Qax, Göyçay, Bərdə, Ağcabədi, Naftalan, Füzuli, Tərtər, Ağstafa, Daşkəsən, Gəncə, Göy-Göl, Şəmkir, Mingəçevir, Gədəbəy, Goranboy, Qazax, Yevlax, Tovuz şəhər və rayonlarında yerləşən pərakəndə ticarət mərkəzlərinə və tikinti şirkətlərinə satışını həyata keçirir. Tikinti materialları istehsalı sahəsi Azərbaycan iqtisadiyyatının emal sənayesində özünəməxsus yer tutur. Azərbaycanda tikinti materialları istehsalı müəssisələrinin rəqabət qabiliyyətini formalaşdıran amillərə misal olaraq iqtisadi rayonların, o cümlədən işğaldan azad edilən əraziləri nəzərə alınaraq tikinti materiallarna olan yüksək tələbi göstərmək olar. Tikinti materialları istehsalı sahəsində rəqabət qabiliyyəti konkret olaraq istehlakçıların tələbləri əsasında keyfiyyət standartlarına əsaslanan əmtəələr hazırlamaq, ümumi qəbul olunmuş normanı üstələməyən məsrəflər ilə sənaye müəssisələrinə tikinti materiallarının satışını həyata keçirməyə imkanı verən, materialların istehlak dəyəri, müasir bazar xüsusiyyətləri və əmtəə dəyəri, bazardakı vəziyyət, eləcə də rəqib müəssisələrin fəaliyyət ilə rəqabətli xarici bazara çatdırmaq imkanının mövcud olmasıyla müəyyənləşdirilir. “Konstromat” ASC tikinti materiallarının satışını həyata keçirməklə yerli bazarda tikinti materiallarına olan tələbin müəyyən hissəsini qarşılamağa imkanı olan şirkətdir.

Nizamnaməyə əsasən, cəmiyyətin Ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağı hesab olunur, cari rəhbərlik təkbaşına icra oqanı olan Direktor tərəfindən həyata keçirilir. Cəmiyyət 05.08.2013 tarixində MMC kimi qeydiyyata alınmış, daha sonra 04.02.2022 tarixində QSC-nə çevrilmiş və 01.11.2023 tarixindən ASC kimi fəaliyyət göstərir. Cəmiyyətin nizamnamə kapitalı 4,000 manat təşkil edir. Səhmdar 100 % səhmlərə sahib Əkbərov Rasim Naib oğludur (Konstromat ASC-də Kommersiya işləri üzrə direktor müavini vəzifəsində çalışır). Həmin şəxs AZPAL QSC-də (VOEN 2004680681) də 100 % səhmlərə sahib olan səhmdardır.

Emitentin rəqabət apardığı əsas bazar daxili bazardır. Belə ki, bazarda olan yerli pərakəndə satışı həyata keçirən hüquqi və fiziki şəxslərə, habelə digər fəaliyyət ilə məşğul olan hüquqi şəxslərə, distribyutoru olduğu şirkətin istehsal etdiyi tikinti materiallarının satışını həyata keçirmişdir. Emitentin son üç il maliyyə ili ərzində fəaliyyət kategoriya dəyişilməmiş və ümumi gəlirləri yalnız daxili bazarda olan tikinti materiallarının topdan satışından formalaşdırılmışdır:

- 2020 - ci il üzrə gəlir – 12,382,009.23 manat;
- 2021 - ci il üzrə gəlir – 33,437,205.34 manat;
- 2022 - ci il üzrə gəlir – 30,919,739.94 manat;

Şirkətin son 3 ilin (2020-2022) auditi sərbəst auditor Hüseynov Aydın Həsən oğlu tərəfindən aparılmışdır. Audit hesabatları üzrə əsas maliyyə göstəriciləri aşağıdakı kimi qeydə alınmışdır:

| Göstəricilər | 2022 Audit olunmuş | 2021 Audit olunmuş | 2020 Audit olunmuş |
|---|---|---|---|
| **Xalis mənfəət** | 4,087,580.49 | 4,565,367.65 | 1,216 527.06 |
| **Cəmi öhdəliklər** | 2,210,586.67 | 4,862,352.71 | 4,111,534.94 |
| **Cəmi kapital** | 3,964,724.27 | 2,684,156.58 | 1,216,146.93 |
| **Cəmi aktivlər** | 6,175,310.94 | 7,546,509.29 | 5,327,681.87 |
| **Pul vəsaitləri** | 273,737.74 | 1,466,295.22 | 676,120,24 |

Maliyyə göstəricilərinə nəzər yetirdikdə, şirkətin kapitalının, o cümlədən xalis mənfəətin artımını xüsusi qeyd etmək olar. Artımın əsas səbəbləri kimi müştəri bazasının genişlənməsi və məhsul satışının artımı qeyd oluna bilər. 2020-ci ildə 102,177.98 ton, 2021-ci ildə 254,228 ton, 2022-ci ildə isə 224,870 ton sement məhsulu satılmışdır. Müştəri sayı 2020-ci ildə - 462, 2021-ci ildə - 845, 2022-ci ildə isə - 1,039 müştəri təşkil etmişdir. 2022-ci ilə mənfəətin 10.47% azalması cari xərclərin artması və satış həcminin azalması ilə bağlıdır.

| Göstəricilər | 2022-ci ilin ilk 6 ayı üzrə | 2023-cü ilin ilk 6 ayı üzrə |
|---|---|---|
| **Cəmi öhdəliklər** | 5,340,078.37 | 7,434,094.16 |
| **Cəmi kapital** | 4,365,927.83 | 4,881,540.32 |
| **Cəmi aktivlər** | 9,706,006.20 | 12,315,624.48 |
| **Pul vəsaitləri** | 1,093,619.48 | 1,199,478.14 |
| **Xalis mənfəət** | 1 ,971,818.92 | 2,164,236.76 |

2023-cü ilin ilk 6 ayında 122,215.25 ton, satış dəyəri ilə 20,320,812.87 manatlıq sement məhsulu satılmış və 2,164,236.76 manat xalis mənfəət qazanıılmışdır. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 9.76% xalis mənfəətin artımı deməkdir.

Şirkətin səhm buraxılışının səbəbi nizamnamə kapitalının artırılmasıdır. Əldə olunmuş vəsait emitentin dövriyyə kapitalının artırılmasına yönəldiləcəkdir. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə, emitent kredit və digər formada vəsait cəlb edilməsi imkanına malikdir. Emitentin dividend siyasəti şirkətin öz səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi hesabına formalaşan pul və ya digər ödəmələr şəklində etdiyi ödənişlərdir. Xalis mənfəətin şirkətin maliyyə ili üzrə bölüşdürülməsi səhmdarların ümumi

yığıncağının qərarı ilə qəbul edilir. Səhmlərin ümumi sayı 10 ədəd olmaqla, 2022-ci ilin yekunlarına görə hər səhm üçün 278,405.66 manat məbləğində dividend ödənilmişdir.

"Konstromat" ASC olaraq növbəti 3 il üzrə biznesin maliyyə nəticələrinin artımını nəzərdə tutur. Strategiyada nəzərdə tutulmuş başlıca vəzifələr biznesin səmərəliliyinin artırılmasından və strateji hədəflərin icrasının əsas resursu kimi insan kapitalının inkişafına diqqətin gücləndirilməsindən ibarətdir. Şirkətin əsas fəaliyyəti yerli bazarda tikinti materialları üzrə olduğunu nəzərə alaraq, bu sahədə şirkətə təsir edən tendensiyalar ölkəmizdə mövcud olan iqtisadi vəziyyət və tikinti məhsullarına olan tələbə uyğun olaraq dəyişəcəkdir.

Şirkət fəaliyyət dövrü ərzində artan statistik göstəricilərinə uyğun olaraq inkişaf strategiyasını uğurla davam etdirmişdir. Bu dövrdə "Konstromat" ASC-nin gəlirliliyinin artımı, sağlam maliyyə vəziyyətinin, yüksək əməliyyat səmərəliliyinin təmin edilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, şirkətin ən yaxşı təcrübəyə uyğun korporativ idarəetmə sistemi qurulmuşdur. 2024-2026-cı illəri əhatə edəcək yeni strategiyada əsas məqsəd bu nailiyyətləri qoruyaraq, çevik şəkildə inkişaf etdirmək, müvafiq seqmentlər üzrə şirkətin əsas bazar mövqelərini daha da möhkəmləndirmək, müasir çağırışlara uyğun innovativ həllərlə yeni müştəri təcrübələri formalaşdırmaq və yüksək məmnuniyyət yaratmaq, sektorda yeni standartlar formalaşdırmaq, ölkəmizin milli inkişaf prioritetlərinə müxtəlif istiqamətlər üzrə töhfələr verməkdir.